**Rəqabət Məcəlləsi rəqabətqabiliyyətliliyi gücləndirəcək**

Məlum olduğu kimi, Azərbaycan Dünya İqtisadi Forumunun «Global Competitivness Report 2012-2013» adlı hesabatında ötən illə müqayisədə 9 pillə irəliləyərək 46-cı yerdə qərarlaşıb. MDB-də ən yaxşı rəqabət və işgüzar mühitinə malik olan respublikamız bir sıra indikatorlar üzrə son illər ən yüksək nəticələr əldə edən dövlət kimi qiymətləndirilir. Ölkəmizin qeyd olunan hesabatda mövqeyinin yaxşılaşması sahibkarlıq sektorunda həyata keçirilən sistemli islahatların məntiqi nəticəsi hesab edilir.

Azərbaycan hökuməti ölkədə rəqabət mühitini daha da yaxşılaşdırmaq məqsədilə ilin sonuna kimi Rəqabət Məcəlləsini qəbul etməyi nəzərdə tutur. Məcəllə iqtisadiyyatın inkişafında yeni mərhələ açacaq sənəd hesab olunur. İqtisadi İnkişaf Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin rəisi Zahid İsayevin sözlərinə görə, son 10 ildə Azərbaycan iqtisadiyyatında xeyli dəyişikliklər olub ki, müvafiq qanunvericiliyin də həmin dəyişikliklərə uyğunlaşdırılması vacib elementlərdən biridir. Bu istiqamətdə tədbirlər həyata keçirilir. Rəqabət Məcəlləsinin qəbul olunması və antiinhisar sahəsində mövcud qanunvericiliyin təkmilləşdirilərək Avropa standartlarına uyğunlaşdırılması ölkədə mükəmməl antiinhisar qanunvericiliyinin formalaşmasına gətirib çıxaracaq. Son illər Azərbaycanda antiinhisar qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli işlər həyata keçirilir, amma bununla yanaşı, hazırda qanunvericiliyin təkmilləşdirilməsinə ehtiyac var. Bu kimi faktorlar Rəqabət Məcəlləsinin yeni layihəsində öz əksini tapacaq.

Məcəllənin qəbul olunması daxili bazarda inhisarçılıqla mübarizə tədbirlərinin güclənməsinə, azad sahibkarlığın inkişafına, şirkətlərin rəqabətli mühitdə fəaliyyət göstərməsinə səbəb olacaq. Məcəllə biznes mühitinin sağlamlaşdırılması, şirkətlərin inkişafı üçün yeni imkanların yaradılması, həmçinin ölkə iqtisadiyyatında rəqabətin müdafiəsi ilə bağlı yeni metod və vasitələrin tətbiq edilməsi baxımdan mühüm əhəmiyyət kəsb edir. Sənəd ölkəmizdə daxili bazarda azad rəqabət mühiti təmin etməklə istehsalın keyfiyyətinin yüksəlməsinə, yerli istehsalın dünya bazarlarında rəqabətqabiliyyətliliyinin artmasına da müsbət təsir göstərəcək, eyni zamanda Azərbaycanın ÜTT-yə üzvlüyünü sürətləndirəcək.

ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) də ölkəmizdə yeni məcəllənin qəbul olunmasının biznes mühitinə, azad rəqabət mühitinin genişlənməsinə səbəb olacağını proqnozlaşdırır. Agentlik hesab edir ki, bu sənəd yerli sahibkarların rəqabət qabiliyyətinin gücləndirilməsi və daxili bazarın qorunması üçün mühüm əhəmiyyət kəsb edir. Azərbaycan hökuməti biznesə müdaxilə hallarının qarşısının alınması ilə bağlı ən radikal addımlar atıb və son illərdə azad sahibkarlığın yüksək inkişafı da məhz bu sistemli islahatların məntiqi nəticəsi sayıla bilər.

Agentliyin mütəxəssislərinin fikrincə, Rəqabət Məcəlləsi rəqabət mühitinin tam təmin olunması üçün mühüm fayda verəcək. Məcəllə bazardakı rəqabət münasibətlərini müəyyənləşdirəcək və birmənalı şəkildə bazarda qiyməti qorumaq üçün yeni mexanizmlərin tətbiq edilməsinə imkan yaradacaq. Bu baxımdan, Rəqabət Məcəlləsinin qəbul edilməsi bazarda inhisarçılığa qarşı mübarizənin gücləndirilməsi üçün hüquqi baza formalaşdıraraq, istehlak bazarında rəqabətin qorunması yönündə əhəmiyyətli rol oynayacaq. Digər tərəfdən, məcəllənin qəbulu ölkə iqtisadiyyatına müsbət təsir göstərəcək, sahibkarlığın inkişaf etdirilməsi, xarici və daxili investisiyaların iqtisadiyyata cəlb olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu və digər islahatlar, ümumilikdə, Azərbaycanın mövqeyinin beynəlxalq iqtisadi strukturlarda və ixrac bazarlarında möhkəmlənməsinə səbəb olacaq, respublikamızın növbəti hesabatlarda daha yüksək yer tutmasına əlverişli zəmin yaradacaq.

İqtisadi İnkişaf Nazirliyinin İqtisadi siyasət, təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Ədalət Muradov isə hesab edir ki, ölkədə bütün investorlar üçün azad və şəffaf rəqabət şəraitinin təmin edilməsi Azərbaycan hökumətinin başlıca prioritetlərindən biridir. Son illərdə biznes mühitinin daha da yaxşılaşdırılması ilə bağlı tədbirlər ölkədə həyata keçirilən iqtisadi islahatların və davamlı siyasətin əsas istiqamətlərindən birinə çevrilib.

Azərbaycan hökuməti yerli və xarici investorların fəaliyyətinə geniş şərait yaratmaqla respublikamıza sərmayə qoyuluşlarının artmasına nail olub. Ötən müddətdə respublikada investorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici

sahibkarlara eyni iş şəraitinin yaradılması, əldə edilmiş mənfəətdən maneəsiz istifadə olunması ilə bağlı mühüm qanunlar qəbul edilib. «İnvestisiya fəaliyyəti haqqında», «Xarici investisiyaların qorunması haqqında» qanunların icrası, eləcə də Azərbaycanla bir sıra xarici dövlətlər arasında ikiqat vergitutmanın aradan qaldırılması, investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişlərin qüvvəyə minməsi xarici investorların, beynəlxalq maliyyə qurumlarının və iqtisadi təşkilatların ölkəmizə olan marağının daha da artmasına əsaslı zəmin yaradıb.

Ə.Muradovun sözlərinə görə, hansısa ölkədə rəqabətin güclü olmasının bir göstəricisi də sərmayə qoyuluşlarının dinamikası ilə bağlıdır. Yəni hansısa ölkədə əlverişli biznes mühiti varsa, azad rəqabət mövcuddursa, təbii ki, ora xarici sərmayədarların axını da güclü olur, bu isə ölkənin rəqabətqabiliyyətlilik əmsalını yüksəldir. Son 20 ildə Azərbaycan iqtisadiyyatına yatırılan ümumi sərmayələrin həcmi 130 milyard dollara çatıb. Sərmayələrin təxminən 55-60%-i xarici sərmayələrin payına düşür. Yəni xarici investorlar tərəfindən ölkəmizin iqtisadiyyatına yatırılmış sərmayələrin həcmi 50 milyard dollardan çoxdur. Bu tendensiya bir daha ölkəmizdə yaradılmış əlverişli biznes mühitinin mövcudluğunu təsdiqləyir.

Ədalət Muradov Rəqabət Məcəlləsinin qəbul olunmasının Azərbaycanda əlverişli investisiya mühitinin daha da genişlənməsinə, rəqabətliliyin güclənməsinə səbəb olacağını bildirir. Rəqabətqabiliyyətliliyn artması isə respublikamızın Dünya İqtisadi Forumunun və digər nüfuzlu beynəlxalq təşkilatların hesabatlarında mövqeyinin daha da yaxşılaşmasına gətirib çıxaracaq.

Elbrus CƏFƏRLİ